

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 81 (23.723)

5 may 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Şahmat üzrə Azərbaycan çempionatında ilk gedişlər edilib

*Mayın 4-də Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində şahmat üzrə kişilər arasında keçirilən Azərbaycan çempionatına start verilmişdir.*

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənovun şahmat lövhəsi üzərindəki rəmzi gedişləri ilə çempionat start götürmüşdür. Naxçıvan Muxtar Respublikasının ilk dəfə olaraq ev sahibliyi etdiyi çempionatda Azərbaycanın 12 ən güclü şahmatçısı birincilik uğrunda mübarizə aparır.





Ötən gün açılış mərasimi keçirilən kişilər arasında Azərbaycan çempionatına mayın 18-də yekun vurulacaq. Mayın 20-dən 31-dək isə qadınlar arasında Azərbaycan çempionatının görüşləri təşkil olunacaq. Hər iki turnir 12 şahmatçının iştirakı ilə dairəvi sistem üzrə keçiriləcək. Kişilər arasında Azərbaycan çempionu olan Dünya Kubokuna, qadınlar arasında qalibləri isə şəxsi Avropa Çempionatına vəsiqə qazanacaq.

**"Şərq qapısı"**

## Nəqliyyat iqtisadiyyatın inkişafında mühüm amil rolunu oynayır

***Müasir dövrdə nəqliyyat respublikamızın iqtisadi infrastrukturunun əsas tərkib hissələrindən birinə çevrilib. Avrasiya ölkələri arasında mərkəzi mövqe tutan Azərbaycanın əlverişli nəqliyyat sistemina malik olması dünya ölkələrinin marağına uyğun olan səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə əlverişli zəmin yaradır.***




İpək Yolunun bərpası TASİS (Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım) və TRASEKA (Avropa - Qafqaz - Asiya Nəqliyyat Dəhlizi) proqramlarının həyata keçirilməsi üçün respublikanın nəqliyyat sistemi mühüm əhəmiyyətə malikdir. Hələ 1998-ci ilin sentyabr ayında Bakı şəhərində tarixi İpək Yoluna həsr olunmuş beynəlxalq əhəmiyyətli konfransda xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: ***"Əminəm ki, tarixi Böyük İpək Yolunun bərpası məsələlərinin müzakirəsi, konfransımızın nəticələri və yekunları milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın, inkişafın, Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edəcəkdir".*** Bu baxımdan Azərbaycanın nəqliyyat sisteminin beynəlxalq inteqrasiyada mühüm rol oynadığını nəzərə alıb dəmir yolu, dəniz nəqliyyatı, avtomobil, boru kəməri, hava və çay nəqliyyatının sahələr üzrə iqtisadi səmərəliliyi müəyyən olunmaqla, müasir şəraitdə nəqliyyat qovşaqlarının əmələgəlmə xüsusiyyətləri və yükdaşıma imkanları araşdırılır, respublikanın iqtisadi rayonları üzrə nəqliyyat sistemi təhlil edilir, hər bir iqtisadi rayonun spesifik xüsusiyyətləri müəyyənləşdirilir, daxili və xarici yükdaşımada nəqliyyatın səmərəliliyi və potensial imkanları qiymətləndirilir.

Respublikamız müstəqillik qazandıqdan sonra nəqliyyat sistemi inkişafının yeni mərhələsinə qədəm qoyub, bu sahədə sektor islahatlarının tamamlanması vahid nəqliyyat siyasətinin formalaşması üçün stimul yaradıb.

Hazırda əlverişli coğrafi məkanda yerləşən respublikamız bütün beynəlxalq və regional layihələrin reallaşması prosesində aktiv iştirak edir. Məhz bunun ifadəsidir ki, Azərbaycan TRASEKA, Şimal-Cənub kimi iri nəqliyyat dəhlizlərinin reallaşdırılması istiqamətində bir sıra nəhəng infrastruktur layihələri həyata keçirib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Avropa və Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasına nail olunub. Bakı-Tbilisi-Qars dəmir yolu və Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihələri Şərq-Qərb nəqliyyat dəhlizinin əsas seqmentlərinə çevrilərək yalnız layihədə iştirak edən ölkələrin deyil, bütün regionda iqtisadiyyatın inkişafına müsbət töhfə verəcəkdir.





Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da nəqliyyat sisteminin inkişafı və iqtisadiyyatda oynadığı rol mühüm əhəmiyyət kəsb edir. Belə ki, diyarımızın qapalı bir ərazi olmasına baxmayaraq, burada iqtisadiyyatın inkişafına təsir göstərə bilən nəqliyyatın bir çox növləri – dəmir yolu, avtomobil, hava nəqliyyatı fəaliyyət göstərir.

1990-cı illərdən başlayaraq ermeni işğalçıları tərəfindən Naxçıvana gələn sərfəli nəqliyyat növünün ətrafında yerləşən bir sıra rayonların işğal olunması bu dəmir yolunun işinin dayandırılmasına və muxtar respublikanın blokada şəraitində qalmasına səbəb olmuşdur.

Muxtar respublikanın iqtisadi inkişafında avtomobil nəqliyyatının xüsusi rolu vardır. Belə ki, diyarımızda istənilən dağlıq ərazilər üçün avtomobil nəqliyyatı çevikliyinə, intensiv yük daşınmasına görə rayon mərkəzləri ilə kənd yaşayış məntəqələri arasında iqtisadi əlaqələrin və sosial-iqtisadi inkişafın formalaşmasında, yük əmtəəliyyatlarının yerinə yetirilməsində, son illərdə dünya ölkələri arasında iqtisadi əlaqələrin inkişafında və formalaşmasında mühüm rol oynayır. Muxtar respublikada yeni yolların salınması və körpü tikintisi sahəsində əldə olunan nailiyyətlər ildən-ilə artmaqda, bütün bunlar isə iqtisadiyyatın inkişafına öz müsbət təsirini göstərməkdədir.

Cari ilin başa vurduğumuz ilk rübünün nəticələri dediklərimizi bir daha sübut edir. Bəhs olunan dövrdə Şərur rayonunda Şahriyar, Ordubad rayonunda Yuxarı Əndəmic-Nüsnüs kənd avtomobil yollarının yenidən qurulması başa çatdırılıb. Naxçıvan şəhərində iki avtomobil yolunun, Culfa-Ordubad magistral avtomobil yolunun, Şərur rayonunda Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx kənd avtomobil yollarının, Şərur şəhərinə giriş və daxili avtomobil yollarının, Şərur şəhərində yeraltı piyada keçidinin yenidən qurulması davam etdirilib.

Şərur rayonunda Çərçiboğan, Ordubad rayonunda Vənənd-Pəzməri, Aşağı Əndəmic kənd avtomobil yollarının yenidən qurulmasına başlanılması, Ordubad rayonunun Nüsnüs kəndində bir körpünün tikintisinin, bir körpünün təmirinin yekunlaşdırılması da görülən işlər sırasındadır. Onu da qeyd edək ki, bu istiqamətdə həyata keçirilən tədbirlərin coğrafiyası da genişlənməkdədir. Bunun ifadəsidir ki, bəhs olunan dövrdə Şərur şəhərində Avtovağzal binasının tikintisinə başlanılıb, Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının tikintisi, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan stansiyasında polis şöbəsi üçün inzibati binanın tikintisi, rabitə qovşağı anbarının əsaslı təmiri, Şərur rayonunda Elektrik Təmas Şəbəkəsi binasının, Dövriyyə Deposunun inzibati binasının və təmir sexinin yenidən qurulması davam etdirilib.

Hazırda Culfa rayonunda İstismar Vaqon Deposunun təmir sexinin tikintisi, inzibati binasının və Babək rayonunda Təhlükəsizlik Komandası binasının yenidən qurulması davam etdirilir.

Onu da qeyd edək ki, ötən müddət ərzində muxtar respublikada nəqliyyat sektorunda 3 milyon 488 min 500 ton yük, 22 milyon 270 min 200 sərnişin daşınıb.

Naxçıvanın iqtisadi əlaqələrinin inkişaf etdirilməsində hava nəqliyyatının da özünəməxsus rolu vardır. Belə ki, son otuz il ərzində muxtar respublikanın blokada şəraitində olması hava nəqliyyatından daha səmərəli istifadə etmək zərurətini doğurmuşdur. İndiki şəraitdə muxtar respublikanın bir çox şəhərlər (Bakı, Gəncə, İstanbul, Moskva) ilə əlaqəsini, həmçinin sərnişin və yük daşınması kimi vacib məsələləri təmin edən hava nəqliyyatı fəaliyyət göstərir. Mövcud şərait ölkə paytaxtı Bakı şəhəri və respublikanın ayrı-ayrı rayonları ilə əlaqələrin yaradılmasında hava nəqliyyatının rolu artmışdır. Yaxın gələcəkdə daha da təkmilləşdirilmiş yük və sərnişin daşıyıcı hava laynerlərindən istifadə olunması iqtisadi səmərəliliyin yüksəldilməsinə təsir etmiş olacaqdır.

**Səyyad VƏLİYEV**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

## Təlimlərə yekun vurulub



Muxtar respublika gömrük orqanlarının əməkdaşları üçün "Avtonəqliyyat vasitələri üzərində gömrük baxışının aparılması" mövzusunda təşkil olunan təlimlərə yekun vurulub. Naxçıvan gömrük sistemində təkmilləşmə və ixtisaslaşma proqramı çərçivəsində keçirilən təlimlərə nəqliyyat vasitələri üzərində aparılan gömrük baxışının səmərəliliyini artırmaq məqsədilə Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Şəhər Gömrük idarələrində yaradılmış müayinə qruplarının əməkdaşları cəlb edilib.

Mərhələli formada üç ay davam edən təlimlərdə nəqliyyat vasitələri üzərində gömrük baxışı və gömrük yoxlamasının daha effektiv şəkildə həyata keçirilməsi, sürücü və sərnişinlərin sorğu-sual edilməsi, nəqliyyat vasitələrinin gizli saxlanc yerləri, riskin qiymətləndirilməsi, qaçaqmalçılıq əlamətlərinin aşkarlanması, yol-nəqliyyat və mal-müşayiət sənədləri əsasında düzgün eyniləşdirmənin aparılması, nəqliyyat vasitələrinin yoxlanılmasında istifadə olunan texniki nəzarət vasitələri və onlardan səmərəli istifadə üzrə dərslər tədris olunub. Seminar-məşğələlərdə komitə əməkdaşları nəqliyyat vasitələrində gizlədilmiş şərti qaçaqmalçılıq predmetlərini texniki nəzarət vasitələrindən də istifadə etməklə aşkarlamaq üçün praktik məşğələlərə cəlb olunublar. Praktik məşğələlərin nəticələrinə görə yekun qiymətləndirmələr aparılıb.

Mayın 4-də son təlim iştirakçıları ilə keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli muxtar respublikanın gömrük sistemində ardıcıl olaraq həyata keçirilən təkmilləşmə və ixtisaslaşma proqramının gömrük işinin keyfiyyətinin artırılması, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, qaçaqmalçılığa qarşı qətiyyətli mübarizə aparılması baxımından əhəmiyyətli olduğunu vurğulayıb. Qeyd olunub ki, muxtar respublikanın tranzit potensialından səmərəli istifadə, ticarətin asan, sürətli və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün gömrük orqanlarının üzərinə mühüm vəzifələr düşür. Bu baxımdan nəqliyyat vasitələri üzərində gömrük baxışı və gömrük yoxlamasının keyfiyyətinin artırılması, riskin düzgün qiymətləndirilməsi üzrə təkmilləşmə tədbirləri bundan sonra da davam etdiriləcək.

Onu da qeyd edək ki, təlimlərdə iştirak etmiş 84 əməkdaşdan 44-ü yüksək, 40 əməkdaş isə məqbul nəticə göstərib və müvafiq sertifikatlar alıblar.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***



# Naxışlarda yaşayan qədim el sənəti – xalçaçılıq

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında “Xalçaçı günü” peşə bayramının təsis edilməsi haqqında” 2016-cı il 25 noyabr tarixli Sərəncamına əsasən hər il mayın 5-i ölkəmizdə “Xalçaçı günü” peşə bayramı kimi qeyd edilir.***

Azərbaycanda toxuculuğun tarixi 5-7 min il bundan əvvələ gedib çıxır. Naxçıvanda duz istehsalına başlanması, duzun tədavülü və daşınmasında torba və xurcunlardan istifadə toxuculuq sənətinin də qədim tarixindən xəbər verir. Toxuculuğun inkişafı isə xalçaçılıq sənətinin yaranması üçün geniş imkanlar açmışdır. Herodot, Klavdi Elian, Ksenofont və digər qədim dünya tarixçilərinin əsərlərində, “Kitabi-Dədə Qorqud” dastanında, Nizami Gəncəvinin yaradıcılığında Azərbaycan xalçaları haqqında məlumatlar verilmiş, bu dəyərli mədəni irsimiz tərənnüm olunmuşdur. Görkəmli Azərbaycan və dünya rəssamlarının tablolarında da təsvir olunan xalçalarımız bu gün dünyanın məşhur muzeylərinin ən dəyərli eksponatlarındandır.



Xalqının milli sərvətinin qorunması, yaşadılması, gələcək nəsillərə çatdırılması ümummilli liderimiz Heydər Əliyevin həyat amalı idi. Ulu öndər deyirdi: ***“Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür”.*** Dahi şəxsiyyət ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə xalçaçılıq sənətinin yaşadılması və inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirmişdir. Ötən əsrin 70-ci illərində Azərbaycanda Xalça Muzeyinin yaradılması, bu sahə ilə məşğul olan tədqiqatçıların, xalçaçıların diqqət və qayğı ilə əhatə edilməsi ulu öndərimizin mühüm xidmətlərindən biridir. Ümummilli liderimiz hələ 1983-cü ildə Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini olduğu zaman Bakıda YUNESKO-nun Şərq Xalçaları üzrə Beynəlxalq Konfransının xətti ilə Azərbaycan xalçasının tanıdılması məqsədilə simpoziumun keçirilməsinə nail olmuşdur. Bu, keçmiş SSRİ məkanında Şərq xalça sənətinə aid birinci simpozium kimi tarixə düşmüşdür. Çoxsaylı xarici qonağın iştirak etdiyi bu simpozium əsl xalça bayramına çevrilmiş, Azərbaycan xalçasının tanıdılmasında və təbliğində mühüm rol oynamışdır.

Xalçaçılıq sənətinin inkişafı sahəsində aparılan iş bu gün uğurla davam etdirilir. ***“Xalça bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin Vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir”***, – deyən Prezident cənab İlham Əliyevin mədəniyyətimizin inkişafı ilə bağlı tövsiyə və tapşırıqları milli-mənəvi dəyərlərimizin, xalq sənəti növlərinin mühafizəsi və inkişafı üçün zəmin yaratmışdır. Bu baxımdan “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul olunması xüsusi əhəmiyyət kəsb edir. Bu qanun xalça sənəti ilə bağlı Azərbaycan xalqının zəngin milli-mədəni ənənələrinin qorunub saxlanılması, öyrənilməsi, xalça sənətinin inkişaf etdirilməsi və təbliği sahəsində məsələləri tənzimləyir. Ölkə rəhbərinin 2007-ci ildə imzaladığı sərəncamla Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni binanın inşa edilməsi xalqımızın keçmiş və çağdaş dövrünün mədəni fəaliyyətinin sərgilənməsinə geniş imkanlar açmışdır. 2010-cu ildə xalça sənətimiz YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ irs siyahısına daxil edilmişdir. Azərbaycan Prezidentinin 2018-ci il 28 fevral tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” təsdiq olunmuşdur.



Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən olan Naxçıvanda xalçaçılıq sənəti qədim tarixə və ənənələrə malikdir. Naxçıvan diyarındakı I Kültəpə ərazisindən tapılan xalçaçılıqla bağlı 177 alət tədqiqatçılar tərəfindən Kür-Araz mədəniyyətinə (eramızdan əvvəl V-III minilliklər) aid edilir. Şərur rayonundakı Ovçular təpəsindən 2019-cu ildə aşkar olunmuş sümük alətlər, o cümlədən toxuculuqda istifadə edilən biz məmulatları insanların Naxçıvan ərazisində hələ Eneolit dövründən toxuculuqla məşğul olduğunu sübut edən tutarlı faktlardandır. Muxtar respublikanın tarixi ərazisindən tapılmış ən qədim xalça hissələri, eləcə də ibtidai gil cəhrələr burada hələ qədimdən toxuculuq sənətinin inkişaf etdiyini göstərir. Araşdırmalardan sonra belə nəticəyə gəlinmişdir ki, bu hissələr ilk dəfə sadə keçirmə üsulu ilə toxunuş ilk xovsuz xalça hesab edilən həsir qalıqlarıdır. Naxçıvan xalçalarının, ümumilikdə, özünəməxsus çalarları vardır. Bu elementlərdən şaquli istiqamətli zolaqlar, romblar, qarmaqlı həndəsi elementlər və nəbati ornamentlər, heyvan təsvirləri kimi naxışlar xalqın genetik yaddaşından silinməyən inanc və təsəvvürlərlə bağlıdır. Xovsuz xalça növündə atların, atlıların və dəvələrin, çullarla bəzədilmiş dəvə karvanının təsviri, xovlu xalçaların bəzəyinə çevrilən buta elementi Naxçıvan xalçalarını öz spesifik toxunuşu və bədii quruluşu ilə fərqləndirir. Araşdırmalar nəticəsində xalçaçılıq sənətinə daxil olan keçəçiliyin lap qədim dövrlərdə mövcud olduğunu qeyd etmək olar.

Xalçaçılıq Naxçıvanda Tunc dövründən başlayaraq inkişaf etmiş, daha da zənginləşərək bu günümüzə gəlib çatmışdır. Orta əsr ərəbdilli mənbələrdə Naxçıvanda xalçaçılığın inkişafı və bu ərazidə toxunan xalçaların dünya bazarında satılması haqqında maraqlı məlumatlara rast gəlmək mümkündür. Miladi tarixi ilə 982-ci ildə ərəb dilində yazılmış “Hüdüd-əl-Aləm” (“Dünyanın sərhədləri”) adlı əsərdə Naxçıvanda toxuculuğun inkişafı haqqında qeydlər öz əksini tapmışdır. Bütün bunlar da onu bir daha sübut edir ki, Naxçıvan ərazisində xalçatoxuma sənəti eramızdan əvvəl IV-III minilliklərdə yaranmışdır. X-XII əsrlərdə Naxçıvanda xalçaçılıq elə yüksək səviyyəyə çatmışdır ki, Azərbaycanın şəhərlərində toxunan müxtəlif növ xalçaların ornament və təsvirlərinin tərtibatında naxçıvanlı sənətkarların əl işlərindən geniş istifadə olunmuşdur.



Qədim ənənələrə malik xalçaçılıq sənəti bu gün də Naxçıvanda yaşadılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı bu qədim sənətin inkişafı və təbliği sahəsində də yeni imkanlar açmışdır. Naxçıvanda xalça sənətinin inkişafı üçün görülən işlərin miqyası genişdir. Naxçıvan Dövlət Xalça Muzeyi ölkəmizdə müstəqillik illərində yaradılan ilk muzeylərdəndir. 1998-ci ildə yaradılan bu muzey 2010-cu ildə yeni binaya köçürülmüşdür. Yarandığı vaxt 359 eksponatla fəaliyyətə başlayan muzeyin eksponatlarının sayı bu gün 3 mindən artıqdır. 2013-cü ildə muzey yenidən qurulmuşdur. Həmin il “Naxçıvan xalçaçıları” kitabının, “Azərbaycan xalçaları: Naxçıvan qrupu” jurnalının, “Naxçıvan xalçaları” sənədli filminin və muzeyin internet saytının təqdimat mərasimi olmuşdur. Azərbaycan, ingilis və rus dillərində nəşr olunmuş “Naxçıvan xalçaçıları” kitabında 254 toxucu haqqında məlumatlar toplanmışdır. Muzeyin internet saytının yaradılması dünyanın hər yerindən muzeyi virtual ziyarət etməyə, ziyarətçilərin ekspozisiyadakı eksponatlarla bağlı məlumatlar almalarına, həmçinin tarixi keçmişimizi öyrənmələrinə imkan yaratmışdır. Muzeyin ekspozisiyasında 264 xovlu və xovsuz xalça, müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, 60 mis və saxsı qab nümayiş etdirilir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Xalça Muzeyinə də ekskursiyalar təşkil olunur. Bu gün Naxçıvan Dövlət Xalça Muzeyi mədəni mərkəzə çevrilmişdir. Burada xalçaçılıqla bağlı mütəmadi sərgilər təşkil olunur, kitab təqdimatları, elmi konfranslar keçirilir. Muzeyin sosial şəbəkə hesablarından ekspozisiyasında nümayiş etdirilən eksponatları izləmək mümkündür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” bu sahədə görülən işləri daha da sürətləndirmiş, xalçaçılıq ənənələrinin daha dərindən öyrənilməsi, araşdırılması və təbliği üçün geniş imkanlar açmışdır. Dövlət proqramında milli xalçaçılıq ənənələrinin qorunması və inkişaf etdirilməsi, ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi yeni vəzifələr kimi müəyyənləşdirilmişdir. Dövlət proqramının icrası ilə bağlı yaradılmış “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən indiyə qədər 635 xalça haqqında məlumatlar daxil edilmişdir.

Muxtar respublikada xalq yaradıcılığı sahələrinin inkişafı, insanların bu sənətə olan marağının artırılması məqsədilə Şərur rayonundakı Cəlilkənddə XIX əsrə aid “Buzxana” kompleksində xalçatoxuma sahəsi fəaliyyətə başlamışdır. Həmçinin “Ənənəni qoruyaq, evdə xalça toxuyaq!” sosial layihəsi çərçivəsində naxçıvanlı xalçaçı qadınlarla müqavilələr bağlanılmış, milli çeşnilər əsasında evlərdə xalça toxunması məqsədilə onlar material və avadanlıqlarla təmin olunmuşlar. Bu, məşğulluğu təmin etməklə yanaşı, həm də xalçaçılıq sənətinin yaşadılması istiqamətində atılan mühüm addımlardandır. Xalçaçılıq sahəsini inkişaf etdirmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması da davam etdirilmişdir. Hazırda Naxçıvan şəhərində “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin xalça istehsalı emalatxanasının tikintisi davam etdirilir.

Bu gün Naxçıvan Dövlət Xalça Muzeyində, Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə açıq dərslər təşkil olunur. Muxtar respublikanın bölgələrində xalçaçılıq kursları fəaliyyət göstərir. Həmçinin Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə peşə kurslarının, Naxçıvan Qızlar Liseyində “Tikiş, toxuculuq və xalçaçılıq” dərnəyinin fəaliyyət göstərməsi, “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunmasının təşkili, muxtar respublikanın kəndlərində xalçatoxuyan qadınların hana və digər zəruri ləvazimatlarla təmin olunması xalçaçılığın inkişafına öz töhfəsini verir.

*Xalçaçılıq sənətinin hər bir nümunəsi xalqımızın gündəlik həyat tərzini özündə ehtiva edən, onun bədii-estetik dünyagörüşünün zənginliyindən soraq verən sənət əsərləridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Naxçıvan xalçaları, sadəcə, xalça deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir. Ona görə də bu nümunələrin öyrənilməsi, tədqiqat işlərinin davam etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılmalıdır”.***

**Naxçıvan Muxtar Respublikası**
**Mədəniyyət Nazirliyinin mətbuat xidməti**




# Zəngəzur dəhlizi açıldıqdan sonra dünya Azərbaycanın Avropası olan Naxçıvanı daha yaxşı tanıyacaq

***Bu gün Prezident cənab İlham Əliyev hər hansı bir xarici həmkarı ilə Naxçıvanın istənilən dağ kəndinə belə, ürəklə gələ və öz həmkarını heyran edəcək tikililərlə tanış edə bilər.***



Zəfərlə başa çatan Qarabağ müharibəsi Azərbaycan dövlətini təkcə qüdrətli ordusu olan bir ölkə kimi dünyaya tanıtmadı. Bununla yanaşı, açılacaq Zəngəzur dəhlizi Avropa və Qərb ölkələrindən heç də geri qalmayan inkişafa sahib şəhərləri olan bir dövlət kimi də Azərbaycanı dünyaya daha çox tanıdacaqdır.

Bəli, Şərqlə-Qərbi özündə sintez edən, daha çox qədim arxitekturanı qoruyub saxlamaqla yanaşı, müasir dövrün tələblərinə tam cavab verən yeni tikililəri ilə gözoxşayan Naxçıvan Muxtar Respublikasını dünyaya təqdim etmək imkanlarımız daha da artmağa başlamışdır. Prezident cənab İlham Əliyevin qətiyyəti, müdrik və dahi şəxsiyyət Heydər Əliyevin siyasi varisi kimi onun peşəkarcasına apardığı daxili və xarici siyasət, qüdrətli Azərbaycan Ordusu və bu arada hamılıqla bir olan xalqımızın qətiyyəti sayəsində 44 günlük müharibəni qələbə ilə başa vurduq.



Bu qələbə təkcə bizə itirilmiş torpaqlarımızı, qürurumuzu geri qaytarmadı, bununla yanaşı, həm də yeni kommunikasiya xətləri, əsasən də, Naxçıvanla Azərbaycanın digər şəhərləri arasında quru yolun açılmasına da səbəb oldu. Zəngəzur dəhlizi açılan zaman təkcə Azərbaycan, Türkiyə və digər dövlətlərin iqtisadiyyatına xeyir gətirməsi ilə dəyərli olmayacaqdır. Sözügedən dəhliz, həm də Naxçıvanın blokada şəraitində olmasına baxmayaraq, istənilən Avropa şəhəri ilə müqayisə ediləcək səviyyədə inkişaf etmiş bir muxtar respublika olduğunu dünyaya göstərəcəkdir.

Naxçıvana ilk qədəm qoyan əcnəbi dağlar qoynunda yerləşən məkana heyran qalacaqdır. Belə ki, dünyanı gəzən bir jurnalist kimi deyə bilərəm ki, Naxçıvan, həqiqətən də, tam fərqli bir yerdir. Dünyada gözəl şəhərlər çoxdur, ancaq onların əksəriyyəti ya tamamilə qədim arxitekturası ilə seçilir, ya da yeni, müasir göydələnləri ilə göz oxşayır. Bəs Naxçıvan nəyi ilə fərqlidir? Naxçıvan Nuhun diyarı olmaqla, Əcəmi seyrəngahı, Şərq arxitekturasına malik Möminə xatın və Qarabağlar türbələri ilə yanaşı, müasir dövrün tələblərinə uyğun Ağbulaq, Saat Meydanı və sair kimi müasir tikililəri ilə hər yerdən seçilir. Əcnəbinin bir anlıq qədim tikililərin, Şərq arxitekturasının sehrində olduğu zaman müasirliyə qovuşması üçün yolun digər kənarına keçməsi kifayətdir ki, özünü Qərbdə hiss etsin. Bu inkişaf üçün Şərq arxitekturasına xələl gətirilməsinə icazə verməyən və doğma Naxçıvanımızı göz bəbəyi kimi qoruyan, müasir tikililəri necə gəldi və harada gəldi yox, yalnız ardıcıllıqla aparan bir rəhbərə borcluyuq. Bütün bunlar – hələ illər öncə salınan, müasir tələblərə cavab verən avtomagistral yollar və həmin yolların kənarında min bir əziyyətlə salınan yaşıllıq, sanki bu günə hesablanmışdır. Naxçıvanın yaşayış binalarının təmiri, salınan müasir parklar, əyləncə mərkəzləri də uzaqgörən siyasətdir. Deməli, əvvəlcədən Naxçıvanın qədim zamanlarda olduğu kimi, Şərqlə-Qərbin birləşməsində böyük rol oynayacağı bilinirdi. Odur ki, Zəngəzur dəhlizinin açılmasına, sanki Naxçıvan on illərdir, hazırlaşırmış kimi daha da müasirləşdi. Bu gün Naxçıvan əcnəbi qonağını qarşılayacaq bir neçə dildə sərbəst danışan sərhədçisi, gömrük işçisi və müasir polisi ilə dünyaya Naxçıvanın bir Avropa şəhəri olduğunu sübut edəcəkdir.

Naxçıvan blokadada olmasına baxmayaraq, bütün sahələrdə Azərbaycanın dünyaya göstərə biləcək ən inkişaf etmiş bölgəsidir desək, yanılmarıq.

Heç kimə sirr deyil ki, şərəfsiz qonşularımız Naxçıvanı uzun illər blokadada saxlayıb. Naxçıvanın, demək olar ki, bütün infrastrukturu tamamilə məhv olmuşdu, hətta elektrik enerjisi, qazı kəsilmişdi. Naxçıvanı həmin dözülməz vəziyyətlərdən çıxararaq bu günümüzə çatdıran müasir Naxçıvan edən və bu yolda öz səhhətinə belə qıyan Heydər Əliyev kimi dahi şəxsiyyətin yanında təcrübə keçən Onun şagirdlərinin xidmətləri misilsizdir.

Naxçıvanı fərqləndirən ən böyük hallardan biri də harada olmasından və həcmindən asılı olmayaraq, aparılan işlərin nizam-intizamla, eyni qaydada olmasıdır. Bu o deməkdir ki, ən ucqar kənddə belə, məktəb tikilirsə, onun Naxçıvan şəhərində tikilən məktəblə müasirlik baxımından heç bir fərqi yoxdur. Bu ona görədir ki, burada görülən işlər zahiri təmtəraq xətrinə edilmir. Bunun özü də cənab Prezidentə sədaqət nümunəsidir.

Naxçıvan ərənlər yurdu kimi qüdrətli orduya da sahibdir. Bunu Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsində Naxçıvandan Qarabağa gəlmiş əsgər və zabitlərimiz öz qəhrəmanlıqları ilə bir daha sübut etdilər.

Bəli, açılacaq Zəngəzur dəhlizi təkcə Naxçıvanın iqtisadiyyatına deyil, bütövlükdə, siyasi cəhətdən ölkəmizə xeyir verəcəkdir. Belə ki, Şərq və Qərb mədəniyyətini özündə birləşdirən muxtar respublikanı dünyaya göstərməklə Azərbaycanın inkişaf etmiş, müasir bir dövlət olduğunu bir daha sübut edəcəkdir.

**ƏLMANİZ ƏLƏKBƏRLİ**
*Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü*
*diaspor.info*
*3 may 2021-ci il*

# Anım tədbiri keçirilib



Sədərək rayonundakı Şəhidlər xiyabanında təşkil edilən tədbiri rayon İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Vüqar Süleymanov açıb.

Bildirilib ki, tarixin bütün dövrlərində öz döyüşkənliyi, cəsarəti, igidliyi və qəhrəmanlığı ilə tanınan naxçıvanlılar həmişə olduğu kimi, Böyük Qələbə ilə başa çatan Vətən müharibəsində də öz sözünü deyib. Onlardan biri də Naxçıvanın qeyrət qalası Sədərəkdə doğulub boya-başa çatan kiçik çavuş Tağı Abdullazadə idi. Qeyd edilib ki, bu gün şəhidimizin dünyaya göz açdığı gündür. Belə qəhrəmanlarımızın həyat yolu əsl vətənpərvərlik nümunəsidir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov, Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Mahirə Adnayeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Sədərək Rayon Qadınlar Şurasının sədri Vüsalə Əliyeva çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, Vətən müharibəsi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin mahir sərkərdəlik bacarığını, çətin şəraitdə düzgün qərar vermək istedadını, dövlət-xalq-ordu birliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

Sədərək döyüşlərinin iştirakçısı, şəhid Tağı Abdullazadənin atası İlham Abdullayev muxtar respublikamızda şəhid ailələri və yaxınlarının dövlətimiz tərəfindən hər cür qayğı ilə əhatə edilməsindən danışaraq minnətdarlığını bildirib.

Şəhid Tağı Abdullazadənin bölük komandiri, Vətən müharibəsi qazisi, mayor Təbriz Zeynalov Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarımızın azad edilməsində igid oğullarımızın göstərdiyi böyük rəşadət və hünərdən, eləcə də döyüş yoldaşı Tağının vətənpərvərliyindən, qeyri-adi qəhrəmanlıqlarından bəhs edib, müharibə xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

Sonda şəhidlərimizin ruhuna dualar oxunub, məktəblilər vətənpərvərlik mövzusunda şeirləri bədii qiraət ediblər.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Şərqdən doğan ədəbiyyat günəşi Nizami Gəncəvi




Humanizm prinsiplərinin təşəkkül tapmasında şair və mütəfəkkir Nizaminin misilsiz xidmətləri vardır.

AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanasında Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyi münasibətilə virtual sərgi təşkil olunub.

Öz yaradıcılığı ilə bütün dünyada şöhrət qazanan, ədəbiyyatın əbədi zirvəsi sayılan böyük Nizami yalnız dahi şair deyil, ölməz ideyaları ilə öz dövrünü qabaqlamış, ülvi məhəbbət, milli köklərə bağlılıq, ədalətli cəmiyyət, əməksevərlik kimi ən mühüm mövzulara toxunan kamil söz ustadıdır.

AMEA Naxçıvan Bölməsində təşkil olunan “Şərqdən doğan ədəbiyyat günəşi Nizami Gəncəvi – 880” başlıqlı virtual sərgi görkəmli şairin yaradıcılığına maraq göstərən hər kəs üçün faydalı ola bilər. Burada Nizami Gəncəvinin əsərləri, müdrik kəlamları ilə yanaşı, onun həyat və yaradıcılığından bəhs edən kitablar, mətbuatda dərc olunan məqalələr, tanınmış şəxsiyyətlərin Nizami haqqında söylədiyi fikirlər və başqa materiallar nümayiş olunur.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Ailə, qadın və uşaq hüquqlarının qorunması günün tələbidir

***Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması aprel ayında da diqqətdə saxlanılmış, bununla əlaqədar bir sıra tədbirlər həyata keçirilmişdir.***



Ailələrin sosial problemlərinin öyrənilməsi və həll edilməsi məqsədilə ötən ay Babək rayonunun Nehrəm qəsəbəsində yaşayan aztəminatlı İbrahimovlar ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir.

Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya xüsusi ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Əshabi-Kəhf ziyarətgahında, “Saat Meydanı” turistik istirahət mərkəzində fəaliyyət göstərən əl işləri mağazalarında, ümumilikdə, 15 qadının 270 manat dəyərində 46 əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur.

“Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” layihəsinin davamı olaraq “Naxçıvan Muxtar Respublikasında COVID-19-un təsirinə məruz qalmış qadınlara iqtisadi dəstək” layihəsinə uyğun olaraq sərmayə kapitalı verilmiş qadınlardan 5-nin iş yeri və təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmişdir.

Monitorinq zamanı layihə iştirakçılarının sərmayə kapitalını bağlanmış müqavilələrə uyğun istifadə etmələrinə nəzarət olunmuş və ayrılmış sərmayə kapitalından düzgün istifadə etmələri yoxlanılmışdır.

Ötən ay Komitə və Şərur Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şərur rayonunda yaşayan sağlamlıq imkanları məhdud və aztəminatlı ailənin üzvü olan qadınlar üçün toxuculuq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmiş, istedadlı toxucu qadın Gülsüm Kəngərli əyani vasitələrdən istifadə etməklə iştirakçılara toxuculuq peşəsinin sirlərini öyrətmişdir. Təlimdə Şərur rayonunda yaşayan 6 aztəminatlı ailədən olan 12 sağlamlıq imkanları məhdud qadın və Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin 3 dərnək rəhbəri iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın müvafiq bəndinin icrası ilə əlaqədar aprel ayı ərzində tədrisə cəlb edilmiş 303 sağlamlıq imkanları məhdud uşaqlarla bağlı 33 uşaq müəssisəsində monitorinq keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na uyğun olaraq 4 uşaq müəssisəsində və valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş 3 uşağın evində monitorinq keçirilmiş, aşkarlanan nöqsanlar aktlaşdırılmış, tədbir görülməsi üçün aid orqanlara məktub göndərilmişdir.

“Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”na uyğun olaraq elektron məlumat bankına 590 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində muxtar respublikada informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurası yaradılacaqdır. Ekspert Şurasının tərkibinə daxil ediləcək müstəqil ekspertlərin seçilməsi və onlara ixtisas attestatının verilməsi məqsədilə komitə tərəfindən müsabiqə elan edilmişdir. Elan kütləvi informasiya vasitələrində, komitənin internet resurslarında və digər sosial şəbəkələrdə yerləşdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Xalq təqvimi*

# Zəhmət dolu yaz ayları – elimizin bar-bərəkət qayğılı çağları

***Əcdadlarımız ta qədimdən təbiət hadisələrini özünəməxsus şəkildə müşahidə edib, müxtəlif mövsümlərə uyğun mərasim və adət-ənənələr formalaşdırıblar. Bu adət-ənənələrdən bir çoxu dövrümüzdə də davam etdirilsə də, bəziləri ilə ancaq tarixi-etnoqrafik və folklor mənbələrindən oxuyub tanış oluruq. Yaz aylarında belə mövsümi adətlər daha çoxluq təşkil edir.***



Yazın əkin-biçininə başlayan torpağa bağlı zəhmətkeş insanların bu aylarda qayğıları daha da artır. Ömrünü-gününü torpağa bağlayan əkinçilərin keyfiyyətli, məhsuldar taxıl növləri yetişdirməkdə zəngin təcrübələri olub. Belə ki, gələcək məhsulun əsası, bolluğu bilavasitə əla toxumdan asılıdır. Bunun üçün də əkinçilər toxumluq taxılın əldə edilməsinə, tez-tez yeniləşməsinə, onun saxlanılmasına zəruri iş kimi baxırlar. Atalar sözüdür: "Nə əkərsən, onu da biçərsən", "Pis toxumdan yaxşı məhsul gözləmə". Bu, səpiləcək toxumdan daha yaxşı və keyfiyyətli taxıl alınması inamı ilə bağlıdır.

İlk toxumsəpməni də əməli saleh, xeyirxah adamlara tapşırar, onların əlinin bərəkətinə inanarlar. "Çörəyə ki haram qatıldı, o artmaz", – deyiblər. Əkin-biçin işində təcrübə toplamış əkinçi də bir ovuc dəni qaraca torpağa səpib: "Mən səpdim, sən min göyərt", – deyər. Səpin vaxtı yerə duman enərsə, bu əkinin tez göyərəcəyinə inam yaradır. Yaz dumanı bərəkət, ruzi hesab olunur. Ona görə də əkinçilər "Yaz dumanı bar gətirər", – söyləmişlər.

Xalq təqvimində yaz fəslinin ilk ayı leysan ayı da adlanır. Leysan ərəbcə nisan, neysan (aprel) sözünün dəyişdirilmiş şəklidir. Yazın bu çağında yağan yağışa leysan yağışı deyirlər. Yaz yağışının hər damlası bərəkət gətirir, bolluq gətirir el-obaya, "Yaz yağışı sel olur, sel çoxalır göl olur", "Göy ağlamayınca yer gülməz", – deyiblər. Uşaqlar da üst-başlarını, üz-gözlərini yağış altda isladar, nəğmə oxuyarlar:

Göy guruldayır, şimşək çaxır,
Yağış gəlir, yağış gəlir.
Çaylarımızdan sellər axır,
Yağış gəlir, yağış gəlir.

Keçmiş dövrlərdə quraqlıq olanda, zəmilər, bağ-bağatlar yananda Allah yolunda nəzir deyər, sədəqə verər, müsəllaya (yağış çağırma mərasimi) çıxardılar. Allaha yalvarardılar ki, bir damcı yağış göndərsin. Bu münasibətlə "Hodu-hodu" adlı qədim mərasim – oyun keçirərdilər. Gözlənilmədən, birdən-birə başlayan yağış qəfildən də kəsərdi. Tünd qara buludlar dağılar, göyün üzü dərhal açılardı. Aydınlıq enərdi el-obanın üstünə. Hamının yaxşı tanıdığı yeddi rəngli qövsi-qüzeh görsənər, dünyanın bu başından o başınadək uzanardı. "Hodu-hodu" oyunu indi muxtar respublikamızın bəzi bölgələrində mərasim nəğməsi kimi təqdim olunur.

Naxçıvan əhalisinin əsas təsərrüfat fəaliyyətini təşkil edən sahələrdən biri də göycə əkinləridir. Buna görə də, may ayında xalq təqviminin müəyyən dövrü "göycə dövrü" də adlandırılır. Onu da qeyd edək ki, son illər muxtar respublikanın özünəməxsus meyvələrindən olan göycə yetişdirilməsinə geniş yer verilir. Müxtəlif sortlarda yetişdirilən dadlı, ləziz göycə muxtar respublikamızdan kənarda da böyük şöhrətə malikdir. Keçirilən ənənəvi göycə festivallarına muxtar respublika sakinləri ilə yanaşı, yerli və xarici turistlərin də maraq göstərməsi bunu bir daha təsdiq edir.

Onu da qeyd etmək lazımdır ki, uzunömürlülərimiz qışı aranda, yayı dağlarda qarşılayıblar. Köç işinə bol məhsulun əsası kimi baxan aran elləri bunun üçün ciddi hazırlıq görərlər. Baharın bu dövründə bəzi yerlərdə cücərti və ya çəmən ayı da deyirlər. Bu mövsümdə güneylərdə arpa biçilər, xırman döyülər, suvarma və alaq işləri aparılar, pambıq becərilər, digər işlər görülər. Elə bu vaxtlarda yaz fəslinin "qızılgül" çağı başlanır. Bu münasibətlə vaxtilə "gülab bayramı" adlı mərasim də keçirilərdi. Bu zaman adamlar şadlıq edər, bir-birinə gözaydınlığı verər, yanaqlarına, alınlarına gülab sürtər, gülab paylayardılar. Hamı bir-birinə kiçik ətir şüşələrində gülab bəxşiş edir, müxtəlif oxuma və ayin oyunları ilə şənlənib əylənərdi.





Mərhum etnoqraf alimimiz Zaleh Novruzov bu barədə yazır: "May ayının 15-dən sonra qızılgüllər açılmağa başlayır. Naxçıvan bağlarında qızılgül daim yetişdirilib. Qızılgüldən alınan gülab, gül mürəbbəsi, gülqənd, gülməşəkər hər bir ailədə hazırlanıb qış azuqəsinə çevrilmişdir. Bu gün qızılgülün satışından gəlir götürən yaxşı ailə təsərrüfatları formalaşıb. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması ilə əlaqədar təsdiq edilmiş Tədbirlər Planında ailə təsərrüfatlarında qızılgül mürəbbəsi və gülab istehsalının artırılmasına nail olmaq üçün bu bitkinin əkin sahəsinin genişləndirilməsi də nəzərdə tutulub. Bu şəraitdən yararlanan ailə təsərrüfatları sahibləri qızılgül istehsalına geniş yer verməklə daha çox gəlir götürmək imkanına malikdirlər. Qızılgül əkinlərinə geniş yer verilməsi həm də xalqımıza məxsus olan qədim əkinçilik ənənələrinin yaşadılması deməkdir.

May ayında dağlarımızda bitən və qış sorabasının əsasını təşkil edən, daim yüksək qiymətləndirilən bolu, çaşır, baldırğan, sobu, çöl kəvəri, cacıq özəyi toplanır. Zəngin təbiəti, təmiz havası və suyu, ekoloji saf məhsulları olan qədim Naxçıvan torpağı may ayında bar-bəhərlərini üzə çıxarır. Naxçıvan nemətlərinin əksəriyyətini qurudub qış fəslinə saxlayaraq onun satışını təşkil edənlər isə daha çox fayda görür".

Yaz ayları arıçılar üçün də mühüm əhəmiyyət kəsb edir. Xüsusilə may ayında arıçıların, necə deyərlər, işi başından aşır. Buna görə də arıçılıqda may ayı "beçə ayı", "beçə dövrü", "pətək ayı" kimi də adlanır. Zaleh Novruzov bu barədə qeyd edir: "Naxçıvanın aran və orta dağlıqda yerləşən yaşayış məntəqələrində may ayından başlayaraq çiçəklər yetişib şirələnməyə, arılar artıq çiçək tozundan (güləm) çox şirə, nektar gətirməyə başlayır. Təcrübəli arıçılar söyləyirlər ki, may ayında arılar alaqaranlıqdan hava isinənə qədər güləm, hava isindikdən sonra isə şirə gətirir... Məlumat üçün deyək ki, arı pətək toxumağa başlamamış beçə verməz. Ona görə də, bəzən arıçılar deyir ki, bu il beçə ili deyil. Hər ailədə bir ədəd olan ana arı pətəyin gözcüklərinə bala (qurd) qoyur. Bu qurdların içərisində iri gözcüklərdən erkək arılar, normal gözcüklərdən isə işçi arılar çıxır. Daha böyük bir neçə göz olur ki, bunlardan da ana arılar çıxır. Təcrübəli arıçılar qoyulan ana gözlərə baxanda, bəzən deyirlər ki, "arı ana dəyişir", yəni ailədə olan ana arı ya qocalıb, ya da hansısa səbəbdənsə, az məhsuldardır. Ona görə də yeni ana arı çıxanda köhnə arını öldürürlər. Yeni çıxan ana arılar özü ilə bir dəstə arı götürərək yeşikdən çıxır ki, buna "beçə" deyirlər. Bir beçə dəstəsində 4-5 ana arı olur. Sonradan arılar seçib birini saxlayır, qalanını öldürürlər. Yeşikdən çıxan beçə yaxınlıqdakı ağac, kolun üstünə düşür. Bir-iki saat ərzində beçə tutulub yeşiyə, səbətə salınmazsa, uçub hara gəldi gedəcək. Bəzən elə olur ki, beçə yaxınlıqda olan, hətta kənarda digər arıçıların qoyduğu boş yeşiyə girib məskən salır. Arı ailəsindən beçənin çıxması arı ailəsini zəiflədir. Vaxtilə arılar səbətdə saxlanılmadığı üçün arı ailəsinə nəzarət etmək olmurdu. İndi isə arı ailəsi yeşiklərdə olduğuna görə nəzarət asandır. Bəzi arıçılar beçənin çıxmasını, arı ailəsini nəzarətdə saxlayır, qoyulan ana gözləri doğrayıb tökürlər. Bu cür xidmət çox zəhmət tələb edir. Yağıntılı illərdə gül-çiçək çox olduğu üçün arı üç dəfə beçə verə bilir. Onlar sırası ilə "şahbeçə", "ortabeçə" və "xorabeçə" adlanır. Yalnız arı ailəsinin sayını artırmaq istəyən arıçı bir neçə dəfə beçə çıxarmasını arzulayır.

Yaz fəslinin son ayına isə bəzi bölgələrdə "ot çalımı" dövrü deyirlər. Bu müddətdə, yəni baharın "yaşa dolduğu" müddətdə ot dizə qalxır. Suvarılan biçənəklərdən, əkinarası mərzlərdən, qoruqlardan, kəndətrafı dərələrdən yem tədarük edirlər ki, qışda mal-qara yemdən korluq çəkməsin. Təcrübəli biçinçilər biçənəyin biçin üçün yetişməsini onun sünbül və ya qönçə bağlaması, çiçəklənmənin başlanması və biçənək sahəsindən gələn ətirli qoxunun duyulması ilə təyin edirlər. Bəzi bölgələrdə ot çalımı dağ çaylarının daşdığı vaxtda başlayır. Ot biçininin başlanması və qurtarması üçün təqvim müddətlərinin təyin edilməsində yerli şərait həmişə diqqət mərkəzində olmuşdur. Yaz fəslinin axırında, yayın başlanğıcında tez-tez əsən gilavar (cənubdan əsən isti quru külək) torpağı qurudur, şehli dumanın torpağa enməsinə mane olur, zəmiləri rütubətsiz, nəmsiz qoyur. Ona görə də əkinin dən tutan vaxtı zəmilərə su verilir. Bu müddətdə əkinin suvarılması ruzinin bolluğu deməkdir.

*Bir sözlə, xalq təqvimində yay ilin barlı-bəhərli vaxtı hesab edilir. Baharda göyərən taxıl zəmiləri yayda qızıllanır. Yay ucsuz-bucaqsız kövşənləri, biçənəkləri, dalğalı zəmiləri, bar-bərəkəti, tükənməz nemətləri ilə gözəldir. Yayın bol məhsulu isə yazda çəkilən zəhmətdən çox asılıdır. Odur ki, yaz ayları xalqımızın həyat tərzində və təqvimində özünəməxsus dövr kimi dəyərləndirilir.*

**Gülcamal TAHİROVA**

## Çempionatın ilk turuna yekun vurulub



***Naxçıvan şəhərində keçirilən şahmat üzrə kişilər arasındakı Azərbaycan çempionatının ilk turuna yekun vurulub. 12 zəka sahibinin mübarizə apardığı yarışın ilk günü maraqlı qarşılaşmalarla yadda qalıb.***

Dairəvi sistem üzrə keçirilən çempionatın ilk turunda qrossmeyster Nicat Abasov (2665) beynəlxalq usta Aydın Süleymanlı (2520) ilə, qrossmeyster Vasif Durarbəyli (2606) beynəlxalq usta Kənan Qarayevlə (2331), qrossmeyster Nicat Məmmədov (2609) qrossmeyster Vüqar Əsədli (2572) ilə, Fərid Abbasov (2528) beynəlxalq usta Məhəmməd Muradlı (2449) ilə, qrossmeyster Misrətdin İsgəndərov (2535) isə beynəlxalq usta Abdulla Qədimbəyli (2470) ilə xalları yarı bölüblər. Naxçıvan təmsilçisi qrossmeyster Urfan Sevdimalıyev (2369) ilk turda güclü rəqibi – qrossmeyster Eltac Səfərli (2598) ilə görüşdən məğlub ayrılıb.

Bu gün ikinci turun görüşləri keçiriləcək. Bu turda azarkeşlər aşağıdakı görüşlərə şahidlik edəcəklər:

*Aydın Süleymanlı – Abdulla Qədimbəyli*
*Məhəmməd Muradlı – Misrətdin İsgəndərov*
*Vasif Durarbəyli – Fərid Abbasov*
*Eltac Səfərli – Kənan Qarayev*
*Nicat Məmmədov – Urfan Sevdimalıyev*
*Nicat Abasov – Vüqar Əsədli*

Görüşlər saat $14^{00}$-da başlayacaq.

Qeyd edək ki, çempionatın ümumi mükafat fondu 15.000 (on beş min) manat təşkil edir.

**Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Notariusa bərabər tutulan şəxslər kimlərdir və onlar tərəfindən aparılan hansı notariat hərəkətlərinə görə dövlət rüsumu tutulur?***

***Cavab:*** Qanunvericiliyə əsasən xəstəxananın, hospitalın, digər müalicə müəssisəsinin, sanatoriyanın baş həkimi, rəisi, onların tibbi hissə üzrə müavinləri və növbətçi həkimləri tərəfindən yalnız həmin müəssisədə stasionar müalicə olunan xəstələrin, azadlıqdan məhrumetmə müəssisələrinin rəisləri tərəfindən cəzaçəkən məhkumların, axtarış, coğrafi və digər belə ekspedisiyaların rəisi, dəniz və ya hava gəmisinin kapitanı tərəfindən həmin müəssisədə olan şəxslərin, ahıllar və sağlamlıq imkanları məhdud olan şəxslər üçün sosial xidmət müəssisələrinin baş həkimləri tərəfindən həmin müəssisədə müalicə edilən və ya yaşayan şəxslərin, habelə notarius olmayan məntəqələrdə yerləşən hərbi hissənin, birləşmənin, müəssisənin və hərbi məktəbin komandiri və ya rəisi tərəfindən həmin müəssisədə qulluq edən hərbi qulluqçuların, mülki şəxs və onların ailə üzvlərinin etibarnamə və vəsiyyətnamələrinin təsdiq edilməsinə görə dövlət rüsumu tutulur.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

### Bildiriş

Naxçıvan Budakan Mərkəzi karate-do idman klubunun fəaliyyəti dayandığından ləğv olunur.

### İtmişdir

Naxçıvan Budakan Mərkəzi karate-do idman klubunun möhür və ştampı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Cəlilkənddə yaşamış Musayev Həbib Qasım oğlunun adına olan JN-315 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Cəlilkənd sakini Musayev Tucaməddin Həbib oğlunun adına olan JN-316 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 374